**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sosial siyasət komitəsinin iclasının**

**P R O T O K O L U № 1**

**Naxçıvan şəhəri** **25 aprel 2024-cü il**

25 aprel 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin üzvü İsa Məmmədov

**İclasda iştirak etdilər:**

1. Cəfərli Əhəd Məmməd oğlu -Komitənin sədr müavini
2. Fərəcov Fərəc Rza oğlu -Komitənin üzvü
3. İbadov Telman Əsəd oğlu -Komitənin üzvü
4. İsmayılov Cəbi Əziz oğlu -Komitənin üzvü
5. Məmmədli Turan Bəyməmməd qızı -Komitənin üzvü
6. Məmmədov Rizvan Təmo oğlu -Komitənin üzvü
7. Rzayeva Yazgül Həsənəli qızı -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
2. Nihad Möhbalıyev - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri
3. Sevinc Cabbarova - Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri
4. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
5. Elşən Yolçuyev - Ali Məclis Aparatının Protokol sektorunun müdiri
6. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri

7. Musa Məmmədov - Ali Məclis Aparatının Humanitar siyasət məsələləri şöbəsinin baş məsləhətçisi

8. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

9. İsmayıl Bağırov - Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdir əvəzi

10. Vüsal Məmmədov - Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini

11. Fərid Bağırzadə - Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri

**İclasın gündəliyi:**

**“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatı” barədə.**

İclası Komitənin sədri Yeganə Məmmədova açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin 9 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Nazirlər Kabineti Aparatının və aid dövlət orqanlarının nümayəndələri iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

Yeganə Məmmədova iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Daxili Nizamnamənin 23.2-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Sosial siyasət komitəsinə rəy verilməsi üçün təqdim edilmişdir.

Yeganə Məmmədova Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatının Ali Məclisin aid şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. Hesabat barədə məlumat verməsi üçün söz Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarovaya verildi.

**Çıxışda:** Sevinc Cabbarova bildirdi ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünya ölkələri sırasında öz sözünü deyən bir dövlətə çevrilib. Ötən illər sübut etdi ki, cənab İlham Əliyev Ulu Öndərimizin müstəqillik və azadlıq

ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik, hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb seçilən dövlətlərindən birinə çevirmişdir. Sosial-iqtisadi, ictimai-siyasi, mədəni inkişaf yolunda mühüm tarixi uğurlar əldə edilmişdir.

Bildirdi ki, Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabat hazırlanmışdır. Hesabatda sosial sahə üzrə görülən işlər barədə məlumatlar "Sosial müdafiə", "İcbari Tibbi Sığorta", "Gənclər və İdman" və s. başlıqları altında qeyd olunmuşdur.

Sonra söz deputat Rizvan Məmmədova verildi.

**Çıxışda:** Rizvan Məmmədov haqqı ödənilən ictimai işlərə cəlb olunanlardan bir çoxunun işdən azad olunmasının səbəbi ilə bağlı sual ünvanladı.

**Çıxışda:** Fərid Bağırzadə səsləndirilən suala cavab olaraq bildirdi ki, nazirlik tərəfindən haqqı ödənilən ictimai işlərlə bağlı 500 kvota yer ayrılmışdır. Həmin yerlər dolduğu üçün əlavə 500 yerin ayrılması ilə bağlı müraciət olunmuşdur. O qanunsuz işdən azad olunma halları varsa bununla bağlı vətəndaşların Nazirliyin tabeliyindəki Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət olunmasını və müraciətlərinin qanunauyğun araşdırılacağını bildirdi.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri Yeganə Məmmədova, digər üzvlər Fərəc Fərəcov, Yazgül Rzayeva, Turan Məmmədli, İsa Məmmədov və Turan Həsənova mövsümi ocaqçıların vaxtından əvvəl əmək müqaviləsinə xitam verilməsi, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi tərəfindən erkən nikahın qarşısının alınması ilə bağlı dini kəbin kəsilməsinə yol verilməməsi, muxtar respublikanın tarixi abidələrini ziyarət edən turistlərin hesabatda əks olunması, Culfa rayonunun Yaycı kəndində içməli suyun keyfiyyətinin artırılması məqsədilə sutəmizləyici qurğunun quraşdırılması, yol kənarlarında müasirtipli dayanacaqların qoyulması, bəzi yollarda nişanlanma xətlərinin çəkilməməsi, Naxçıvan şəhərində 1, 7 və 9 nömrəli marşrut üzrə hərəkət edən nəqliyyat vasitələrinin müasir və iritutumlu avtomobillərlə əvəz olunması, Ali Məclisin plenar iclaslarında su təminatı ilə bağlı qaldırılan məsələlərin bir çoxunun öz həllini tapmaması, şagirdlərin və müəllimlərin geyim formalarına nəzarət olunması, səhiyyə müəssisələrində tenderlərin keçirilməsinin zaman alması nəticəsində xəstələrin pulsuz dərman preparatları ilə təminatında çətinliklərin yaranması, Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb üçün tikilən binanın yarımçıq qalması, tikilməsi nəzərdə tutulan uşaq bağçasının isə inşasına başlanılmaması, işsizlikdən sığorta ödənişlərinin alınmasında problemlərin olması və digər mövzularda öz fikirlərini, irad, qeyd, təklif və suallarını səsləndirdilər.

Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev və Humanitar siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Musa Məmmədov əhalinin sosial müdafiəsi ilə bağlı qeyd olunan məlumatlarda bəzi sosial göstəricilərin, müqayisəli statistikasının verilməməsini, icbari tibbi sığorta ilə əlaqədar əvvəlki illərlə müqayisənin aparılmamasını, dezinfeksiya, dezinseksiya işlərinin, yoluxucu viruslara qarşı, QİÇS-lə bağlı 2023-cü il ərzində

həyata keçirilən tədbirlərlə, yeni doğulanlar haqqında, dövlət tərəfindən pulsuz verilən dərman preparatları ilə bağlı, işlə təmin olunma, pensiya təminatı və təqaüdün təyin olunması ilə əlaqədar statistik məlumatların hesabatda öz əksini tapmadığını diqqətə çatdırdılar.

Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri Fərid Bağırzadə səsləndirilən fikirlərə münasibət bildirərək suallara aydınlıq gətirdi, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparıldı.

**Çıxışda:** Komitə sədri bildirdi ki, komitə iclasında Nazirlər Kabinetinin hesabatı ilə bağlı aparılan müzakirələr faydalı oldu, hesabatla bağlı təklif və iradlar səsləndirildi.

Qeyd etdi ki, Ali Məclisin Sosial siyasət komitəsi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsi müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Sonda Yeganə Məmmədova altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin rəyini oxudu və "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **Y.Məmmədova**

**Katib:** **İ.Məmmədov**